Azərbaycan Respublikasının
Auditorlar Palatası
Daxil № 101
"08" 02 2021 il

# "AZƏRBAYCAN DƏMİR YOLLARI"

## QAPALI SƏHMDAR CƏMİYYƏTİ

AZ 1010 - Bakı, D.Əliyeva küç., 230
Tel : +994 12 499 44 11
Faks: +994 12 499 46 64
e-mail: info@ady.az

Azərbaycan Respublikası
Auditorlar Palatasının sədri
cənab Vahid Novruzova

Hörmətli Vahid müəllim,

Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 25 illik yubileyi münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi çoxminli dəmiryolçular adından səmimi qəlbdən təbrik edir, dəyərli işlərinizdə müvəffəqiyyətlər arzulayıram.

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə müstəqil maliyyə nəzarəti sisteminin formalaşdırılması sahəsində həyata keçirdiyi islahatlar çərçivəsində Azərbaycan Respublikasının Auditorlar Palatası mütərəqqi təsisat kimi yaradılmış, Palata səmərəli fəaliyyəti ilə respublikamızda müasir audit sisteminin qurulmasında mühüm xidmətlər göstərmişdir.

Bu gün Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə uğurlu və şəffaf iqtisadi siyasətin həyata keçirilməsinə böyük töhfələr verən Auditorlar Palatası tərəfindən ölkəmizdə beynəlxalq standartlara cavab verən auditor fəaliyyətinin təşkili, təsərrüfat subyektlərində maliyyə-vergi intizamının gücləndirilməsi, dürüst mühasibat uçotunun tətbiqi, audit sahəsində zəngin normativ-hüquqi bazanın formalaşdırılması istiqamətində görülən tədbirlər təqdirəlayiqdir.

Auditorlar Palatasının işində fərqlənən əməkdaşlarının və üzvlərinin ali dövlət mükafatlarına layiq bilinməsi ölkə başçısı tərəfindən səmərəli fəaliyyətinizə göstərilən yüksək diqqətin əyani təzahürüdür.

Xüsusi vurğulanmalıdır ki, auditor fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər çərçivəsində “Azərbaycan Dəmir Yolları” QSC-də daxili audit fəaliyyətini həyata keçirən əməkdaşların peşəkarlığının artırılması məqsədilə Palata tərəfindən təşkil edilən təlim və kurslara cəlb edilməsi dəmir yolu nəqliyyatında audit xidmətinin səmərəliliyinin daha da yüksəldilməsinə öz töhfəsini verməkdədir.

Bu əlamətdar yubiley münasibətilə Sizi və bütün kollektivinizi bir daha ürəkdən təbrik edir, ölkəmizin iqtisadi tərəqqisi naminə mühüm və gərəkli işlərinizdə uğurlar diləyirəm.

Hörmətlə,

Sədr Cavid Qurbanov

Sənəd №: 41488
Tarix: 03.02.2021